# Dövlət-xalq-ordu birliyi

## Naxçıvan Qarnizonu Mərkəzi Hospitalına bayram sovqatı aparılıb

"Xalq, dövlət orduya ümid edir, orduya güvənir. Ordu isə xalqın, dövlətin dəstəyinə güvənir", - deyən Ümummilli Lider Heydər Əliyevin Naxçıvanda əsasını qoyduğu milli həmrəylik bu gün müstəqil Azərbaycanda inkişafın və sabitliyin əsas təminatıdır.







Dünya azərbaycanlılarını vahid ideologiya ətrafında birləşdirən həmrəylik bayramı bu gün xalq-ordu birliyinin də əsasını təşkil edir. Bunun nəticəsidir ki, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ordumuz Vətən müharibəsində tarixi Qələbə qazandı. Naxçıvan Muxtar Respublikasında da həmrəylik bayramında əsgərlərlə görüşlərin keçirilməsi, sovqatların aparılması bu birliyin daha bir nümunəsi kimi mühüm əhəmiyyətə malikdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, dekabrın 31-də - Dünya Azərbaycanlılarının Həmrəylik Günündə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan Qarnizonu Mərkəzi Hospitalına gəlib, burada müalicə olunan hərbi qulluqçularla görüşüb, onların səhhəti ilə maraqlanıb.

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev Ali Məclisin Sədrinə raport verib.

Bildirilib ki, bu il ölkə Prezidentinin iştirakı ilə istifadəyə verilən hərbi hospital regionun ən müasir səhiyyə ocağıdır. Hospitalda müxtəlif şöbə və bölmələrin fəaliyyət göstərməsi, eləcə də ixtisaslı həkimlərin olması, ən son tibbi avadanlıqlarla təminat xəstələrin hərtərəfli müayinə və müalicəsinə imkan verir. Digər bir tərəfdən isə hərbi hissələrdə şəxsi heyətin sağlamlığının qorunmasına xüsusi diqqət yetirilir, iqlim şəraitinə uyğun rejim qaydaları və qidalanma tətbiq olunur, dərman vasitələri ilə təminat və ilkin tibbi yardım diqqətdə saxlanılır. Bütün bunlar isə Naxçıvan Qarnizonu üzrə şəxsi heyətin sağlamlığını etibarlı qorumağa imkan verir, xəstələrin sayı azalır.

Həkim Anar Əliyev minnətdarlıq edərək deyib: "Bu gün müasir iş şəraiti yaradılan hospitalda xidmət edirik. Yaradılan şəraitdən istifadə edərək hərbi qulluqçuların sağlamlığının keşiyində dururuq. Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə kollektiv adından təbriklərimizi çatdırır və əmin edirik ki, bundan sonra da səylə çalışacağıq".

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov əsgərləri və tibbi heyəti Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə təbrik edərək deyib: "Müasir hospitalda çalışmaq həkimlərə peşələrini daha yaxşı icra etmələrinə imkan verir. Əvvəlki hospitalda tibbi heyətin fəaliyyəti üçün çətinliklər yaranırdı. Bu gün isə xəstələrə keyfiyyətli tibbi xidmət göstərmək üçün bütün şərait vardır".

Əsgər Eldar İmanov və zabit Elbrus Tağıyev yaradılan şəraitə və göstərilən diqqətə görə minnətdarlıq ediblər.

Ali Məclisin Sədri yeməkxanada olub, hərbi qulluqçuların qidalanması ilə maraqlanıb, hospitalda mülki şəxslər üçün də tibbi xidmətin təşkili və kadr işinin diqqətdə saxlanılması barədə tapşırıqlar verib.

Hospitalda müalicə alan əsgərlərə və tibb heyətinə bayram hədiyyələri paylanılıb, gətirilmiş ərzaq məhsulları mətbəxə təhvil verilib.

❖ ❖ ❖

Həmin gün Naxçıvan Muxtar Respublikası Psixi və Ağciyər Xəstəlikləri dispanserlərində, Onkoloji və Yoluxucu Xəstəliklər mərkəzlərində də xəstələrə və tibb işçilərinə hədiyyələr paylanılıb, gətirilmiş ərzaq məhsulları anbarlara təhvil verilib.

Azərbaycan.- 2022.- 6 yanvar.- S. 5